Fəridə KAZIMOVA
Filologiya üzrə fəlsəfə doktoru
Qərbi Kaspi Universiteti
E-mail: fkazımova@internet.ru
ORCID ID: 0009-0007-8497-1830
https://doi.org/10.59849/2309-7949.2026.2.96

"ƏMSALİ-TÜRKANƏ": PAREMİOLOJİ VƏ ƏDƏBİ TƏHLİL

Açar sözlər: Atalar sözləri, məsəllər, nüsxə, ədəbi abidə, əlyazma, folklor.

АННОТАЦИЯ
«АМСАЛИ-ТЮРКАНА»: ПАРЕМИОЛОГИЧЕСКИЙ И ЛИТЕРАТУРНЫЙ АНАЛИЗ

«Амсали-Тюркана» — азербайджанский литературный памятник XVIII века. Эта рукопись состоит из пословиц и поговорок. В ней содержится 1149 примеров. Эти примеры перекликаются с примерами эпосов «Китаби-Деде Горгуд» и «Огузнаме». Пословицы расположены в алфавитном порядке на основе арабской графики. Один экземпляр «Амсали-Тюркана» был обнаружен в Баку, три — в библиотеках Стамбула. Эти изречения основаны на жизненном опыте народа. Этот литературный памятник считается важным научным источником для изучения азербайджанского фольклора, национально-духовных ценностей и мировоззрения народа; он отражает богатство паремиологической системы и вносит вклад в исследование истории языка.

Ключевые слова: Пасловицы, поговорки, экземпляр, литературный памятник, рукопись, фольклор.

ABSTRACT
"AMSALI-TURKANA": PAREMIOLOGICAL AND LITERARY ANALYSIS

"Amsali-Turkana" is an Azerbaijani literary monument dating back to the 18th century. This manuscript consists of proverbs and sayings. There are 1149 examples included in it. These examples resonate with the epic "The Book of Dede Gorgud" and "Oguzname." The proverbs are arranged according to the Arabic alphabet. One copy of "Amsali-Turkana" was discovered in Baku, while three copies were found in libraries in Istanbul. These sayings are based on the life experience of the people. This literary monument is considered an important scientific source for studying Azerbaijani folklore, national and moral values, and the worldview of the people; it reflects the richness of the paremiological system and contributes to the study of the history of the language.

Key word: Proverbs, sayings, copy, literary monument, manuscript, folklore.

Giriş. XVII yüzillikdən başlayıb XX yüzilliyin əvvəllərinə qədər davam edən Yeni dövr Azərbaycan ədəbiyyatının I mərhələsi – XVII-XVIII əsrlər ədəbiyyatın digər dövrlərindən özünəməxsusluğu ilə fərqlənir. Bu fərqliliyin əsasını isə şifahi xalq ədəbiyyatının inkişafı, yazılı ədəbiyyata güclü təsiri, toplanması və yazıya köçürülməsi təşkil edir. XVII-XVIII yüzilliklərdə folklor nümunələri geniş miqyasda yazıya alınmış, bu mərhələyə aid əlyazmalarda, cünglərdə yüzlərlə aşıq qoşmaları, bayatılar, onlarla dastanlar qorunub saxlan-

mışdır. Belə əlyazmalardan biri də XVIII yüzillikdə Abbasqulu Marağı tərəfindən qələmə alınaraq "Əmsali-türkanə" adlandırılmışdır.

Əsas hissə. "Əmsali-türkanə" el dilində dolaşan atalar sözləri və məsəllərdən ibarətdir və burada 1149 paremioloji vahid yer almışdır. "Əmsali-türkanə"nin strukturu ənənəvi formadadır. Nümunələr ərəb əlifba sisteminə əsasən səliqə ilə düzülmüşdür. Qeyd edək ki, ənənəvi məcmuələr "əlif" hərfindən "ya" hərfinə qədər yazıldığı halda, "Əmsali-türkanə" "əlif"dən başlayıb "kəf" hərfində bitir. Mətnşünasların araşdırmalarına əsasən deyə bilərik ki, əlyazmanın "kəf" hərfindən sonrakı hissəsi, yaxud da sonluğu yoxdur və əlyazmanın sonluğu olmadığından onun kim tərəfindən, harada köçürüldüyünü müəyyən etmək mümkün olmamışdır [Payızov, Adilov, 1992: 4]. Odur ki, əlyazma natamam hesab olunur, amma bu, "Əmsali-türkanə"nin dəyər və əhəmiyyətinə xələl gətirmir.

Bu qiymətli mənbə tədqiqatçıların gözündən yayınıb uzun illər Əlyazmalar İnstitutunun arxivində qalmış, nəhayət, Müqəddəs Payızov tərəfindən aşkarlanaraq 1992-ci ildə çapa hazırlanmışdır. Əsərin farsca yazılan müqəddiməsində qeyd olunmuşdur ki, bu ədəbi abidə Ağa Məhəmməd şah Qacarın atası, Mazandaran hakimi Hüseynqulu xanın tapşırığı ilə qələmə alınmışdır. Çox güman ki, Xanın tövsiyəsi ilə tərtib edilməsi bu toplunun məşhurlaşmasında, üzünün mədrəsələrdə köçürülməsində, eləcə də geniş yayılmasında böyük rol oynamışdır. Maraqlıdır ki, Şah İsmayıl Xətayiyə qədər yüksək zümrənin, hakim dairələrin zövqünün ifadəsi olan divan ədəbiyyatına qoşma, gəraylı, bayatı kimi xalq ədəbiyyatı, aşıq poeziyası nümunələri daxil olunmurdu, çünki sadə xalq həyatını əks etdirən elağız ədəbiyyatı saraylarda xor görülür, qeyri-ciddi qəbul edilirdi. Lakin xalq yaradıcılığı örnəklərinin XVII-XVIII yüzilliklərdə məhz sarayların mənəvi, bədii tələbatına çevrilməsi ədəbiyyat tariximizdə diqqət çəkən hadisədir və bunun bir sübutu da "Əmsali-türkanə" əsəridir.

"Əmsali-türkanə" özündən əvvəlki ədəbi abidələrlə dili, ruhu etibarilə həmahəngdir. Ta qədim dövrlərdən şifahi şəkildə dolaşan atalar sözləri və məsəllər zaman-zaman toplu şəkildə qələmə alınmışdır. Oğuz elində bu örnəklər xüsusi dəyərlərə malik olmuşdur və hətta cəmiyyətin nizam-intizam normaları olaraq görülməkdədir:

Ataların sözü Qurana girməz,
Amma Quran yanınca yalın-yalın yarışır.
Atalar sözini tutmayan yabana atılur,
Axirətdə tamu əhlinə qatılur [Oğuznamələr, 1993: 65].

Nümunədən göründüyü kimi, ulu ların sözü müqəddəs "Qurani-Kərim" qədərində tutulur. Ataların öyüd və nəsihətlərinə əməl etməyənlər axirətdə "tamu", yəni cəhənnəm əhlinə aid olunar.

Oğuzlar üçün ataların sözləri milli mənəvi dəyərlərin ifadəsidir. Atalar sözləri M.Kaşğarlının "Divanü lüğat-it-türk" əsərindən üzü bəri bir çox yazılı mənbələrdə qeydə alınmışdır. " M.Kaşğarlının əsərində "sav" istilahı altında 318 atalar sözü işlənibdir" [Kaşğarlı, 2006: 25]. Bu savlar, yəni qədim türk ata sözlərimiz həm şifahi xalq yaddaşında, həm də sonrakı dövr yazılı nümunələrdə, eləcə də haqqında bəhs etdiyimiz "Əmsali-türkanə"də bu və ya digər şəkildə yaşamaqdadır. "Əmsali-türkanə"də *Beş barmaq tən olmaz, Qurt qonşısına dəgməz, Qanı*

qan ilə yumayupdular, qanı su ilən yuyupdular, Başıaçığın qaçacağı börkçi dükanıdur – deyilirsə, "Divanü lüğat-it-türk"də də *Bişernek tüz erməs (Beş bağmağın beşi də bir olmaz), Böri köşnısın yeməs, Kanığ kan belə yumas, Taz keliqe börkçi (Keçəlin qaçacağı yer papaqçı dükanı)* – söylənilmişdir [Atalar sözü, 2004: 248].

Türk xalqları yaratdıqları bədii nümunələri uzun illər ozanların, baxşıların yaddaşında şifahi şəkildə yaşatmışlar. "Dədə Qorqud" boyları – süjetli "Oğuznamə"lər də məhz ozan təfəkkürünün mühafizəsində yaddaşdan-yaddaşa ötürülmüşdür. Məlumdur ki, bu eposun müqəddiməsində Dədə Qorquda aid edilən kəlamlar yer almışdır. Görünür, el dilində dolaşan bu hikmətli kəlamların zaman-zaman yazıya alınma zərurəti duyulmuşdur. XVI əsrin sonu XVII əsrin əvvəllərində qələmə alındığı güman olunan "Əmsali-Məhəmmədəli" yaxud "Məcməül-əmsali Məhəmmədəli" adlanan toplunun ilk cümləsi belədir: "Haza kitabi Oğuznamə", yəni "Bu, Oğuznamə kitabıdır". Oğuznamələr Oğuzların tarix və ədəbiyyat saxlancıdır. "Oğuz xalqlarının yaradıcılıq nümunələrinin ümumi şəkildə Oğuznamə adlanması qədim ənənəyə malikdir" [Hacıyev, 2011: 3] və bu qədim ənənə ədəbiyyat tarixinin yeni dövrünə qədər davam etmişdir. Belə ki, XIX yüzillikdən etibarən "Oğuznamə"yə rast gəlinmir. "Əmsali-türkanə" "Oğuznamə"lər silsiləsinin XVIII əsr həlqəsidir və varislik baxımından daha öncəki abidələrin davamıdır. "Əmsali-türkanə" qədim mənbələrlə müasir atalar sözləri arasında körpü təsiri bağışlayır. Buradakı müdrikliyin əks-sədası "Kitabi-Dədə Qorqud" ilə səsləşir. "Kitabi-Dədə Qorqud"da: *Allah-Allah deməyincə işlər önməz; Qara eşək başına üyən ursan qatır olmaz; Qaravaşa ton geyürsən, qadın olmaz; Əski panbuq bez olmaz; Kül təpəcik olmaz; Oğul atadan görməyincə süfrə yaymaz; Yad oğulu saxlamaqla oğul olmaz,* – deyilir.

"Əmsali-türkanə"də bu deyilənlər bir daha təsdiqlənir: *Allah-allah deməyincə işlər olmaz; Qara eşşəgə yügən ursan qatır olmaz; Əski pənbuq bez olmaz; Qaravaşa don getdürsən, xatun olmaz; Kül təpəcik olmaz; Oğul atadan görməyincə süfrə açmaz; Özgə oğlı kimsəyə oğul olmaz.*

Bu deyimlərdə məzmun, ifadə edilən anlam eynidir. Lakin fonetik, leksik, qrammatik istiqamətdə dəyişikliklər, təbii olaraq, müşahidə olunmaqdadır. İstənilən türk ədəbi abidəsinin, o cümlədən "Əmsali-türkanə"nin "Kitabi-Dədə Qorqud " ilə eynilikləri təbiidir.

Eləcə də bu bənzərliklər XVII əsrə aid "Oğuznamə"də də özünü göstərməkdədir. S.Əlizadə yazır: "A.Marağinin əsəri Məhəmmədəli "Oğuznamə"sindən sonra və daha müxtəsər şəkildə tərtib edilmiş, bəzi söz və ifadələr öz dövrü üçün müasirləşdirilmişdir" [Oğuznamə, 2006: 10]. Məsələn, "Əmsali-türkanə"də:

Adam ondur, doqquzu dondur;
Az-çox aşım, ağrımaz başım;
Anasına bax qızın al, qırağına bax, bezin al;
Ac qatıq istəməz, yuxu yasduq;
Bir ata qırx oğul saxlar, qırx oğul bir atanı saxlaya bilməz;
Bir günün bəgliyi də bəglikdür;
Qardaşlar savaşdı, əbləhlər inandı;
Ulular sözünə baxmayan ulaya-ulaya qalur;
Ətlə dırnaq arasına girən çürər çıxar və s.

Bu deyimlər təxminən yüz-yüz əlli il əvvəl "Əmsali-Məhəmmədəli"də belə ifadə olunmuşdur*:*

Ər ondur, toquzu tondur;
Azacıq aşım, ağrımaz başım;
Anasın gör qızın al, qıyısın gör bezin al;
Ac qatıq istəməz;
Bir ata toquz oğul bəsləyər, amma toquz oğul bir babayı bəsləməz;
Bir günlük bəglik də bəglikdür;
İki qardaş savaşmış, əbləh gerçək sanmış;
Ulular sözün tutmayan ulayu qalur;
Ətlə tırnaq arasına girən yiyüp çıqar və s.

Bu mənbələrdəki örnəklər atalar sözlərimizin inkişaf tarixini izləmək üçün maraqlı faktlara malikdir. Maraqlıdır ki, hər hansı atalar sözü və ya məsəl birdənbirə meydana çıxmır. "Kitabi-Dədə Qorqud "dan bir parça şəklində tanış olduğumuz atalar sözlərimiz XVI sonu XVII əvvəllərində "Əmsali-Məhəmmədəli" adı altında kitab halında qarşımıza çıxır. XVIII yüzillikdə xalq hikmətinin bədii örnəkləri "Əmsali-türkanə" adı ilə bir daha toplanılır, daha neçə-neçə toplularda atalar sözləri və məsəllər qələmə alınır. Bu fakt göstərir ki, ulu əsrlərin sınağından üzüağ çıxmış hikmətli kəlamlar daim diri qalan yaddaşımızdır. Toplumun, millətin dəyərlərini təşkil edən atalar sözləri ta qədimlərdən digər xalq yaradıcılığı nümunələrindən fərqli tutulub, zaman-zaman yazılı saxlanca çevrilib.

Folklor nümunələrimiz geniş coğrafi arealı əhatə edən bütöv Azərbaycanın əzəli türk sakinlərinin tarixi yaddaşının, dünyagörüşünün və estetik təfəkkürünün məhsulu kimi formalaşmışdır. Bu nümunələr regional və inzibati bölgülərlə məhdudlaşmır; onların "şimal" və ya "cənub" kimi ayrımı şərtidir və elmi baxımdan nisbi xarakter daşıyır. Əksinə, həmin irs etnomədəni sistemin vahidliyini əks etdirərək oğuz mənşəyini və mədəni varisliyi özündə qoruyub saxlayan bütün soydaşlarımızın dilində və yaddaşında yaşamaqdadır. Bu şifahi örnəklər İraq türkmanlarının folklorunda eyni ilə "Oğuznamə"dəki, "Əmsali-türkanə"dəki, "Kitabi-Dədə Qorqud"dakı axıcılıqla, dil və üslub özəllikləri ilə ifadə edilir. XVIII yüzilliyin dil xüsusiyyətləri ilə XX yüzillikdə yazıya alınmış İraq-Kərkük folklor örnəklərinin dili arasında böyük fərqlər yoxdur. "Əmsali-türkanə"dəki nümunələrlə qarşılıq İraq türkmanlarından gətirdiyimiz misallara diqqət edək. "Əmsali-türkanə"də: *Arpa əkən buğda götürməz; Əbləh öldür, dünya üçün qəm yeyər; Kim bilür ki, kim qazana kim yeyə; Bağ bağbanındur, Bir əl ilə iki qarpuz dutmaq olmaz; Şirvanda qurt az idi, biri də gəmidən çıxdı; Çox yaşayan çox bilməz, çox gəzən çox bilür; Cəfa çəkməyən rahat görməz; Dama-dama göl olar, dada-dada yox; Dəgirman bildigin eylər, çax-çax başın ağrıdur,* – söylənilir.

Bu kəlamların İraq türkmanlarında variantları belədir:

Arpa əkən buğda biçməz, Axmaq odı, bu dünyaycin qəm yeyə, Mövlam bilür kim qazana kim yeyə, Bağ bağbanındı, Bir qoltuğa iki qarpız sıxılmaz, Çəmdə çaqqal azıydı, biri də gəldi gəmiynən, Çox gəzən çox bilər, çox yaşıyan çox bil-

məz, Cəfanı çəkmiyən səfanın qədrin bilməz , Damla-damla göl olı, Dəgirman işini görər, çaq-çaq baş ağrıdar və s. [İraq-Kərkük atalar sözləri, 1978].

Nümunələr aydın və anlaşılan şəkildədir. Ərəbin dil təsirində olmasına baxmayaraq, ana dilimizin şirinliyi, saflığı şifahi örnəklərdə hələ də yaşamaqdadır. Qəliz ərəb-fars tərkibləri, rus-Avropa dillərinə aid sözlər yoxdur. Dil birdir, ifadə olunan fikir eynidir. Bu müdrik deyimlər azacıq fərqlərlə Kərkükdə, Cənubi Azərbaycanda, Dərbənddə, Qarabağda, Şəkidə, Şirvanda, eləcə də digər bölgələrimizdə işlənməkdədir.

"Əmsali-türkanə" hər hansı ədəbi mənbədən köçürülmə deyil, müstəqil yazıya alınmadır. Doğrudur, Oğuz atalar sözlərindən ibarət bir çox toplular elmə məlumdur. "Oğuznamə"lərin əvəzsiz araşdırıcısı S.Əlizadə yazır ki, 1964-cü ildə Leninqrad Dövlət Universitetinin kitabxanasında "Əmsali-türki" adlı mənbə ilə rastlaşmış, lakin o dövrdə bu mənbəni tədqiq üçün icazə ala bilməmişdir.

1984-cü ildə isə böyük türk alimi Əli Yavuz Akpınar İstanbul arxivlərindən üç ayrı nüsxəsini aşkar etdiyi "Əmsali-türkan" adlanan məcmuə barədə məlumat vermişdir və Azərbaycan mətbuatında bu əsərdən nümunələr gətirərək çıxış etmişdir. Qeyd edək ki, Akpınar "Əmsali-türkanə"nin ilk tədqiqatçısıdır. Görkəmli alim bu əsərdən bəhs edərkən yazır: ""Əmsali-türkanə" adlı məcmuə başdan-başa Azərbaycan xalqının əsrlər boyu yaratdığı bu qiymətli inci örnəkləri ilə doludur" [Akpınar, 1984: 3]. Ə.Y.Akpınarın qənaətinə görə, "bu məcmuə vaxtı ilə məşhur olmuşdur. Yoxsa İstambul kitabxanalarına üç ayrı nüsxəsi düşə bilməzdi. ...Yazı və imladan anlaşılır ki, iki nüsxə Cənubi Azərbaycanda, bir nüsxə isə Türkiyədə köçürülmüşdür" [Akpınar, 1984: 3].

Bizim mətni ilə tanış olduğumuz əlyazma Bakı nüsxəsi adlandırılır və Bakı nüsxəsi ilə İstanbul nüsxəsi arasında fərqlərin olması onların hər birinin ayrı-ayrı mənbələrdən köçürülməsini göstərir. Məsələn,

Bakı nüsxəsində:

At yügürür, ər ögünür;
At ələ gələr, meydan ələ girməz;
Borc ilən çaxır içən iki xumar olur;
Düşman səni daşlan, sən düşmanı aşlan və s.

İstanbul nüsxəsində:

At yüyürür, igid öyünür;
At ələ keçər, meydan ələ keçməz;
Borc ilən çaxır içən iki xumar çəkər;
Düşmən səni daş ilən, sən düşməni aş ilən

və s. şəklində verilmişdir.

Eləcə də bəzi nümunələr bu və ya digər nüsxədə öz əksini tapmamışdır ki, bu da nüsxələrin üzünü köçürən katiblərin diqqətsizliyi ilə izah oluna bilər. "Əmsali-türkanə"yə daxil olan paremik vahidlər sadə xalq deyimi üslubundadır. Toplayıcı bu nümunələri el dilindən aldığı kimi yazıya köçürmüşdür. Bir qisim nümunələrdə tabu söz və ifadələrə yer verilməsi də məhz bunun nəticəsidir. Eyni zamanda "Rəiyyət arasından toplanmış və saraya təqdim edilmiş belə abidələrə

heç bir hakim və əyanın zövqünə müvafiq qadağan qoyulmur, əlyazmalarda ixtisar aparılmırdı" [Maraği, 1992: 7] .

Xalqın milli məişətini özündə incə səmimiyyətlə əks etdirən nümunələr də vardır ki, bunların hər biri həyati təcrübədən qaynaqlanır: *Bulamac dana qalsa, dil ögrənür; Balığı haçan dutsan tazədür; Buynuz qoça yük olmaz; Çölməkdə ət qalmadı, çuğundur baş qovzadı; Çarığında əsirgəyən dolağında tapar; Dəgirmançıya acığ edən çuvalun boş aparur; İgnə işin çuvalduz bilməz; Su səngi suda sınar; Atlas nə qədər köhnə olsa, pataba olmaz; İt dərisin dabbağ götürməz; Qar dağa çıxdı, əziz oldı; Suyı dəhnədən savmaq gərək; Çölməg çölməgə qara dedi, sacayağ utanduğundan tənnürə düşdi* və s.

Deyimlərdə *bulamac, çuval, çarıq, çölmək, dabbaq, pataba, dəhnə* və s. kimi arxaik leksika, qədim peşə-sənət sözlərinin işlənməsi olduqca maraq doğurur.

"Əmsali-türkanə"də bəzi xüsusi adlarla bağlı məsəllərə də təsadüf edirik ki, bunların müəyyən əhvalata əsaslandığı şübhəsizdir. Məsələn, *Qoyun olmayan yerdə keçiyə Kəraməddin ağa derlər; Qurd quzuya dəgməsə İsfahana gedər; Ərənlər Gəncədən keçipdür; Hacı Hacını Məkkədə, kürd kürdü dəgirmanda; Şirvanda qurt az idi, biri də gəmidən çıxdı və s.* Bu kimi məsəllərin, çox güman ki, müəyyən bir tarixçəsi vardır və konkret əhvalata əsaslanır.

Qeyd edək ki, *Ölü bir gün, şivəni yüzgün; Saçı öli üstə kəsərlər; Ölün yağlıdur, sürt başuva; Ölünün dirisi gərək; Andun iki başı olur* – kimi atalar sözləri isə qədim adət-ənənələrimizi özündə yaşatmaqla ayrıca önəm daşıyır.

Abidənin dili tarixi qrammatikamızı öyrənmək baxımından da qiymətlidir. Sözlərdə xəbərlik, şəxs şəkilçiləri III şəxsin təkində -dır; -dir variantında deyil, -dur; -dür kimi işlənir: *İgidə ehtiyat şərtdür; Adam var can tayıdur* və s. Eləcə də indiki zaman şəkilçiləri -ur, -ür şəklində deyilmişdir*: Qum qalur, su gedür; Zər ilən zor işləri yola aparur; Savaş gendən baxana asan gəlür* və s. Müasir dilimizdəki *ilə* qoşması *ilən* olaraq işlənməkdədir: *Ölüm qaş ilən göz arasındadur. El ilən gələn qara gün toy-bayramdur. İş tədbir ilən gərək; Aş duz ilən, duz aş ilən və s.*

Maraqlıdır ki, *Qış gögdə qışlamaz; Zalımın çörəgi dizi üstə olur; Sona qalan ögünsün; İstədigim yar idi, yetürdi pərvərdigar; İgnə işin çuvalduz bilməz və s.* nümunələrdə müşahidə olunan [y] samitinin [g] kimi tələffüz olunması dil faktı olaraq dialektlərimizdə öz izlərini saxlamaqdadır və "şərq qrupu dialekt və şivələrinə aiddir. ... ignə, dügi, dügmə, dügün, igid, gögəm, əgri, igirmi, cigər, dəgirman (Bakı, Şamaxı, Quba, Muğan)" [Şirəliyev, 2008: 85].

Diqqət çəkən digər bir detal isə *Qardaşın kiçisi olunca, tonuzın böyügi ol* – deyimində yer almaqdadır. Müasir Azərbaycan dilində "kiçik", "alçaq" kimi sözlər fleksiya prosesinə məruz qalmış sözlər olaraq bilinməkdədir. Hal-hazırda dilimizdə "kiçi" və "alça" sifətləri yoxdur. Lakin nümunədən göründüyü kimi, XVII-XVIII yüzilliklərdə dilimizdə mövcud olduğu göz önündədir. Hətta "Oğuznamə"də də "kiçi" sözü işlənmişdir. Ulu bayramda yeməkdən saqın, *Kiçi* bayramda ətdən saqın; *Kiçilər* suç işlər, ulular bağışlar və s. Nümunələrdən aydın olur ki, tarixən *"kiçi"* sözü işlək olmuşdur, XVIII yüzillik də daxil olmaqla uzun zaman dilimizdə aktiv olduğu görünür.

Nəticə. "Əmsali-türkanə"nin dili digər "Oğuznamələr"dən – " Kitabi-Dədə Qorqud"dan, "Əmsali-Məhəmmədəli"dən çox da fərqlənmir, eləcə də məqsəd və qayə olaraq onların bədii davamıdır. "Əmsali-türkanə" istər Qədim və Orta əsrlərə aid dil faktlarını özündə yaşatma baxımından, istərsə də folklorşünaslıq baxımından böyük əhəmiyyətə malikdir. Beləliklə, folklor irsimiz yalnız ədəbi-estetik hadisə kimi deyil, eyni zamanda milli kimliyin, etnik özünüdərkin və mədəni varisliyin əsas göstəricilərindən biri kimi dəyərləndirilməlidir.

ƏDƏBİYYAT

1. Atalar sözləri / Tərtib edəni və ön sözün müəllifi: M. Yaqubqızı. Bakı: Nurlan, 2013.
2. Atalar sözü / Tərtib və ön sözün müəllifi: C.Bəydili. Bakı: Öndər, 2004.
3. Akpınar, Ə.Y. Abbasqulu Marağayinin "Əmsali-türkan" əsərində Azərbaycan atalar sözü. "Ədəbiyyat və İncəsənət" qəzeti, 6. 01. 1984.
4. Hacıyev, T. Abidənin uğurlu tədqiqi // A.Əsgərova "Oğuznamə"nin dili. Bakı: Təhsil, 2011, s. 3-5.
5. İraq-Kərkük atalar sözləri / Tərtib edən: Q.Paşayev. Bakı: Yazıçı, 1978.
6. Kaşğarlı, M. Divanü lüğat-it-türk. 4 cilddə, 1-ci cild. / Tərcümə edən və nəşrə hazırlayan: R. Əskər. Bakı: "Ozan", 2006.
7. "Kitabi-Dədə Qorqud" dastanı / Tərtib edən S. Əlizadə/ Bakı: YNE, 1999.
8. Marağı, A. Əmsali-türkanə. Atalar sözləri və xalq məsəlləri / Çapa hazırlayan: M. Payızov. Bakı: Yazıçı, 1992.
9. Oğuznamə / Tərtib edən: S. Əlizadə. Bakı: Şərq-Qərb, 2006.
10. Oğuznamələr / Tərtib edənlər K.Vəliyev, F.Uğurlu. Bakı: Bakı Universiteti Nəşriyyatı, 1993.
11. Payızov M., Adilov M. Dili ver xalqa... Ön söz. A. Marağı "Əmsali-türkanə". Bakı: Yazıçı, 1992.
12. Şirəliyev M. Azərbaycan dialektologiyasının əsasları. Bakı: Şərq-Qərb, 2008.